Aybeniz Garagile Qafarlı

## Əllərindən Tutmaram

Bağladım ürəyimdə,
Sənə gələn yolları.
Qırram sənə açılan,
Bu uzanan qolları.

Yenicə puçurlayan,
Sevgimizə daş atdın.
Nifrəti bağrına bas,
Bəlkə məni  yaşatdın.

Bir daha adın gəlməz,
Mənim bu lal dilimə.
Axı sənin yolunda,
Mən gedərdim ölümə.

Əllərindən tutmaram,
Son nəfəsdə, son anda.
Əgər güvən yoxdusa,
Baxma içilən anda...

Daha sevgi bağımda,
Bülbül ötüşən deyil.
Ürəyimi çox qırdın,
Vallah bitişən deyil.

Daha ayrı dünyanın,
Yolçusuyuq ikimiz.
Deyək mübarək olsun,
Sənli, mənli itkimiz.